**UOT 792.03**
**https://doi.org/10.59849/2311-8482.2024.3.274**

**GÜNAY İSMAYILOVA***

# "KÖÇƏRİ" YALLISININ NAXÇIVAN MUSİQİ FOLKLORUNDA ROLU

*Köcəri yaylaq yallısıdır. İki hissəlidir, qarışıq ifa olunur. Azərbaycanın hər yerində lduğu kimi Şərurda da aran, yaylaq zonalar var. Əhalinin maldar hissəsi yayda yaylaqda, qışda aranda yaşayır. Əhali yaylağa böyük köçlər halında hərəkət edir. Yallının adı "Köçəri"- köçün əri, yəni başçısı ifadəsindən irəli gəlmişdir. Şərur torpağı öz yallı gedənləri, yallı ustaları ilə məşhurdur. Şərurda hamı yallı gedir, amma bu ustalar yallı gedərkən ayaq və bədən hərəkətləri ilə digərlərindən fərqlənirlər. Şən və ritmik şəkildə ifa olunan bu rəqsdə iştirakçılar bir – birinin çiyninə qollarını qoymaqla, titrək hərəkətlərlə üç addım irəli, üç kiçik addım geri getməklə aram tempdən iti tempə keçərək rəqsi tamamlayırlar. Rəqs edənlərin hərəkət cizgiləri, yallını müşaiyyət edən, təbiəti oxşayan sadə və həzin melodiyaları bir növ Şərur relyefinin cizgiləri ilə ahəngdar uzlaşır və Azərbaycan musiqisində, rəqsində özünəməxsus xüsusi çalarları ilə fərqlənir. Maraqlıdır ki, Azərbaycanın heç bir yerində, eləcə də Naxçıvanın digər rayonlarında bu cür musiqi, mahnı və rəqsə ( bir- iki yallı istisna olmaqla) rast gəlinmir. Uzaq kecmişdən qrup halında meydana gəlmiş yallı – mahnı, oyun və rəqsləri bu gün də Şərur rayonunda davam edən ən geniş yayılmış folklor formasıdır. Şərur yallı mahnı və rəqsləri bütün bayramlarda, toylarda və xalq şənliklərində ifa olunur. Yerli əhali onların özünəməxsus, təkraredilməz, səciyyəvi xüsusiyyətlərini həvəslə, sevə - sevə qoruyub saxlayır.*

***Açar sözlər:*** İncəsənət, folklor, xalq yaradıcılığı, mədəni adətlər, yallının tarixi, mədəniyyət, xalq rəqsi, musiqi, ənənələr, oyunlar.

## Giriş

Qədim və bərəkətli Azərbaycan torpağında yüzlərcə insan nəsli bir – birini əvəz etmiş, zəngin tarix yaratmışdır. Bu tarixdə çətin sınaq illəri, zəfər illəri, zəhmət və hünər dolu bir həyat olmuş, Azərbaycan xalqının mədəniyyəti və incəsənəti yaranıb, inkişaf etmişdir. Ulu babalarımızın həyat tərzi, əməyi, mübarizəsi, sevgisi, nifrəti haqqında, yaratdıqları gözəl abidələr, sənətkarlıq nümunələri, qoşduqları mahnılar və nəğmələr haqqında məlumat az deyildir. Lakin xalqımızın rəqs sənətinin necə yarandığını hələ indiyədək doğru- dürüst, mükəmməl öyrənə bilməmişik. Rəqslərimizin tarixi kökləri isə lap qədimlərə gedib çıxır. Təkcə onu deyək ki, hələ on min il bundan əvvəl Qobustan qayalarında naməlum rəssamlar həm fərdi, həm də kütləvi rəqslərin ayrı – ayrı məqamlarını həkk etmişlər. Həmin nadir yadigarlar bizə çox şey deyir.

## Əsas təhlil

Kitabxanaları gəzin, cüngləri gözdən kecirin, orda dünyanın bir çox xalqlarının rəqsləri haqqında yazılı məlumatlar taparsınız, ancaq Azərbaycan rəqsi haqqında- xalqımızın rəqs tarixindən bəhs edən tutarlı bir mənbəyə rast gəlməzsiniz. Respublikamızın rəqs kollektivləri və mədəniyyət ocaqları üçün bu sahədə metodik ədəbiyyat catışmir, repertuar qıtlığı özünü göstərir. Ona görə də rayonlarımızda yaşayan həvəskarlar məcburiyyət qarşısında qalaraq Bakı rəqs ustalarının verdikləri məlum quruluşları təkrar etməyə çalışır.

Azərbaycan xalqı yüzillər boyu özünün gözəl rəqslərini, ifa tərzini, hərəkət leksikasını yaratmışdır. Azərbaycan rəqsinin əsas forması solo rəqsi və duet rəqsləri- iki nəfərin ifa etdiyi rəqslərdir. Lakin bununla belə, bizdə ellikcə oynanılan rəqslər də coxdur. Xüsusilə Naxçıvan MR-da, respublikanın cənub rayonlarında - Lənkəranda, Lerikdə, Masallıda, Astarada kütləvi rəqslər geniş yayılmışdır. Azərbaycan üçün süjetli rəqslər də səciyyəvidir. Onlarda həm oyun, həm oxuma, həm zarafat, həm bayatı və həm də, ümumi süjet vardır. Qədim rəqs incilərimizi unutmağa haqqımız yoxdur. Çünki Azərbaycan xalqının yüzillərdən bəri yaratdığı bu sanballı, dadlı-duzlu əsərlər incəsənətimizin, mədəniyyə timizin, keçmiş həyatımızın tarixi olmaqla yanaşı, gələcək mənəvi-ruhani intibahımızın da mühüm təməl daşlarından biridir.

Azərbaycanda geniş yayılmış rəqslərdən olan "Yallı"nın qədimdə ən çox oynanıldığı rayonlardan yığılmışdır.

Yallı bir rəqs kimi Azərbaycan ərazisində hələ 8-10 min il bundan əvvəl mövcud olmuşdur. Böyükdaş və Qobustan qayalarındakı rəsmlər buna canlı sübutdur. O dövrün rəssamı qaya üzərində kütləvi rəqslərin sxemini çəkmişdir. Alimlərimiz belə qənaətə gəlirlər ki, bu fiqurlar şəklində rəqs edən insan təsvirləridir.

Minilliklərdən keçən bu xalq rəqsi indi də mövcuddur. Yaxın keçmişədək Şərurda 100- dən çox yallı növü məlum idi. Lakin indi cəmi 20-si oynanılır.

Biz bütün gördüyümüz və eşitdiyimiz yallı növlərini yazmağa çalışmışıq. Əlbəttə, yallının bu və ya digər növü haqda yığılan məlumatların hamısı bir- birinə bənzəmir. Qarşıda bir çətinlik də vardır. Təsvir olunan yallıların hamısının musiqisi məlum deyil. Çoxlarının musiqisi tamamilə unudulmuş və yaddan çıxmışdır. Bunun üçün də yallı həvəskarları sənətşünaslıq namizədi Bayram Hüseynlinın "Azərbaycan xalq rəqs melodiyaları" adlı kitabında (Bakı, Azərnəşr, 1965) müraciət edə bilərlər. Burada təqdim olunan yallıların çoxunun musiqisi orada verilmişdir.

Yallı əslində Azərbaycan rəqs sisteminin adıdır. Çünki bu ad altında onlarla müstəqil rəqs toplanıb, bu rəqslərin daxili keçidləri, harmoniyası birinin digərindən törədiyini təsdiq etməyə böyük nəzəri bilik tələb olunmur. Yallı ifaçıları "ayaqların" sayı ilə də (Üç ayaq", "Dörd ayaq" ) rəqsin inkişaf tendensiyasını göstərə bilirlər. Azərbaycanın dilbər güşəsi olan Naxçıvan Muxtar Respublikasının kəndlərində xalqımızın keçmişi ilə bağlı olan qədim adətlərimiz bu gün də yaşayır. Şərur rayonunun bütün kəndlərində yallı folklor nümunəsi bu gün də öz ahəngini, ritmini, birliyini təravətlə saxlayır.

Ən çox Naxçıvan ərazisində qorunan və ifa olunan yallı əslində regional məhdudiyyət tanımır. İstisnasız olaraq Azərbaycanın bütün bölgələrində yallı rəqslərinin peşəkar ifasına və ifaçılarına rast gəlmək olur.

Yallılar oyun və rəqs tipli olur. Oyun tipli yallılar zarafat, yarışma və s. zəngindir. Rəqs tipli yallılar isə ifa edilir, buraya yeriş elementləri daxildir.

Rəqs tipli yallını adətən 3 qrup - kişi, qadın və qarışıq uşaq qrupları ifa edirlər. Bu qruplardan hər birinin özünün aparıcısı, yallıbaşısı olur ki, o da əlində ya dəsmal, ya da çubuq öz qrupunu istiqamətləndirir. Bütün qruplar əsasən dairə üzrə hərəkət edirlər. İştirakçılar və tamaşaçılar birlikdə mahnı oxuyurlar. Ancaq çox vaxt yallı zurnaçıların müşayiəti ilə ifa edilir. Bu musiqi çox ucadan çalınır. Şərur rayonunda rəqs zamanı bəzən 80-100 nəfərdən ibarət qruplar da olur.

Yallılar templərinə görə iki yerə bölünürlər; birincilər "sındırıcı" adlanır. O, yavaş tempdə, təmkinlə, vüqarla, məğrur - məğrur ifa edilir. İkincilər isə "şıdırğı" adlanır; o, daha sürətlə, şən ifa olunur. Bunların hər ikisində hərəkətlərin sxemi eynidir. Lakin bu hərəkətlər ikincidə birinciyə nisbətən daha şən və cəld ifa olunur.

Adətən yallılarda rəqsin I hissəsi yavaş, bir - iki dairə oynanılır. Sonra yallıbaşının xahişi ilə daha cəld musiqi calınır və hamı bu tempdə rəqs edir.

Bəzən yallı ikixətli olur. Yəni ifaçılar iki xətt üzrə düzülür və hər sıra ayrı- ayrı rəqs edir. Axırda bu dəstələrin yallıbaşıları öz aralarında yarışırlar. Onlardan hansı qalib gəlsə, onun dəstəsi də qələbə çalmış hesab olunur.

Azərbaycanın təbiəti rəngarəng oduğu kimi, onun müxtəlif bölgələrinin musiqi folkloru da rəngarəngdir. Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan, öz qədimliyi, memarlıq abidələri, arxeoloji qazıntıları və folkloru ilə xüsusi olaraq seçilir.

Mömünə xatun məqbərəsi, Gəmiqaya, Haça dağ, Hüseyn Cavid türbəsi, " Qızlar bulağı " kompleksi, Əshabi – Kəhf ocağı, Darı dağ müalicə ocağı, Bata – bat yaylağı, Xal – Xal meşəsi və onlarla bu kimi adlar Naxçıvanın tarixinə əbədi həkk olunaraq bu diyarı zənimçə daha da zənginləşdirir.

Azərbaycan xalqının çox gözəl mədəni adətləri, ənənələri, xalq sənəti, oyunları, musiqisi vardır ki, bu da xalqın zəngin folklora, nadir xalq yaradıcılığına malik olmasına əyani sübutdur.

Şərur yallıları arasında insanların mütəmadi olaraq əl - ələ, qol – qola verib oynadığı rəqslərdən biri "Köçəri" yallısıdır. "Köçəri" Azərbaycanda, xüsusən Naxçıvan Muxtar Respublikasında daha çox yayılmış yallı növlərindəndir. Azər- baycan xalqının sevimli rəqsləri silsiləsinə daxildir.

" Köçəri" rəqsi Yallı rəqsinin bir növü olduğundan, onun yaranma tarixi yallının

tarixi qədər hesab oluna bilər. Azərbaycanda mərasim rəqsi sayılan "Yallı"nın tarixini eramızdan əvvəl V minilliyə aid olduğunu sübuta yetirmişdir. Köçəri rəqsi əsasən Naxçıvanda geniş yayılmışdır.

"Koçəri" yallısı türk xalqlarının birliyini özündə əks etdirən Azərbaycanda, o cümlədən onun Naxçıvan bölgəsində daha çox ifa edilən, özündə milliliyi daşıyan yallı növlərindən biridir. "Koçəri" yallısının yaranma tarixi, onun Naxçıvanda bu gün də yaşayan mədəni irsi, adının mənşəyi və əhəmiyyəti ilə bağlı elmi məqalələri kitabda yer alıb. Yallı Azərbaycan xalqının folklorunda və etnoqrafiyasında özünəməxsus yer tutan milli mənəvi dəyərlərimizdən, xalq rəqslərimizdən biridir.

"Yallı" nın bir komponenti olan "yal", yəni cərgədir, zəncir xəttidir. "Yallı"nı oynayanlar bir və ya iki cərgədə, bəzən də bir neçə cərgədə dururlar. Öz hərəkət düzümünə, quruluşuna görə yeni ad – "Yallı" ( yəni cərgəyə duranlar) adı kəsb yaranıb. "Yal" həm də yamac, dağ ətəyi deməkdir.) "Köcəri" yallısı beynəlxalq festivallarda hər zaman uğur qazanıb. Xüsusən Naxçıvanda el şənliklərində geniş ifa edilir.

**Nəticə**

Ümummilli liderimiz Heydər Əliyev dediyi kimi - "Yallılar bizim keçmişimiz, bu günümüz, gələcəyimizdir". Ümummilli liderimiz kecmişə xor baxmamağı, onun yaxşı nümunələrini qoruyub saxlamağı bizə öyrətmişdi. "Yallı" Azərbaycan xalqının qəhrəmanlıq, mərdlik rəmzidir, tarixidir. Bu tarixi heç vaxt unutmaq olmaz . Naxçıvan torpağında bu tarix yaşayır, inkişaf edir və örnək olaraq gələcək nəsillərə qalır.

## ƏDƏBİYYAT

1. Həsənov K. Azərbaycan qədim folklor rəqsləri. Bakı , 1988
2. Kərimli Ə. Yallı . Bakı , 2004
3. Məmmədli E., Orucov A. Azərbaycanın ən qədim yallılarından biri: Koçəri. Naxçıvan: Əcəmi, 2018
4. Bəhmənli R. Azərbaycan yallıları. Dərs vəsaiti. Bakı, 2018
5. Kərimli Ə. Şərur yallısı. Bakı, 2001

***Naxçıvan Dövlət Universiteti***
***Musiqi təlimi kafedrası baş müəllim***

**Gunay Ismayilova**

## THE ROLE OF "KOCHARI" YALLI IN NAKHCHIVAN MUSIC FOLKLORE

Nomadic pasture yallisi. lt is a two –part, mixed performance. As in all parts of Azerbaijan, there are lowland areas in Sharur. The livestock part of the population lives in pastures in summer and in winter. The population flocks to the plateau as a big street. The name yalli in comes from the expression "nomad" - the husband of the migrant, is the head. The land of Sharur is famous for its own yalli walkers and yalli masters. Everyone walks in Sharur, but these masters differ from others by their foot and body movements when walking barefoot. In this cheerful and rhythmic dance, the participants complete the dance by playing arms on each other's shoulders, moving forward three steps with trembling movements, and three small steps back, moving from a slow tempo. The movements of the dancers, the simple and melancholy melodies that accompany the yalli and resemble nature, harmoniously harmonize with the lines of a kind of Sharur relief and are distinguished by their own special shades in the dance of Azerbaijani music. It is interesting that nowhere in Azerbaijan, as well as in other regions of Nakhcivan, except for such yalli is not found. Distant music, song and dance.

**Keywords:** *art, folklore, folk art, cultural customs, history of yallı, culture, folk dance, music, traditions, games.*

**Гюнай Исмайлова**

**РОЛЬ «КОЧАРИ» ЯЛЛЫ В МУЗЫКА ЯЛЛЫ В МУЗЫКАЛЬНОМ ФОЛЬКЛОРЕ В НАХЧЫВАН**

Он ходит босиком, но в Шаруре все эти мастера отличаются от других движениями ног и тела при ходьбе босиком. В этом веселом и ритмичном танце уцастники завершают танец, кладя руки другу на плечи, делая три шага вперед и три маленьких шага назад и вперед, двигаясь в медленном темпе к резкому. Движения танцоров, простые и меланхоличные мелодии, сопровождающие ялли и напоминающие природу, гармонично сочетаются с чертами своеобразного

шарурского рельефа и выделяются своими неповторимыми оттенками в азербайджанской музыке и танце. Интересно, что нигде в Азербайджане, как и в других районах Нахчывна, такой музыки, песен и танцев ( кроме одного -двух яаллы) нет. Яллы - песни, игры и танцы, возникшие в груллах в далеком прошлом, до сих пор являются самой распространенной формой фодьклора в Шаруре. Шарурские песли и танцы исполняются на всех праздниках, свадьбах и народных гуляниях. Люби – люби.

**Ключевые слова:** *искусство, фольклор, народное творчество, культурные обычаи, история ялм, культура, народный танец, музыка, традиции, игры.*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 11.09.2024**
**Son daxilolma tarixi:28.10.2024**